

**Ağəddin Rüstəm**

## Öldürəcək

Al yazmalım, alın yazım,
Sarı simli telli sazım,
İncə belli nazkl quzum,
Nazın məni öldürəcək.

Nə gecəm var, nə gündüzün,
Saçlarına güllər düzüm,
Ceyran gözlü, nazlı quzum,
Nazın məni öldürəcək.

Səndən ayrı qalmaq çətin,
Mən oldum sənin qismətin,
Sevgindi mənim sərvətim,
Nazın məni öldürəcək.

Ağəddin vəfalı sənə,
Şükür edir o, hər günə.
Nazınla oynayır yenə,
Nazın məni öldürəcək.

## Qarabağlıyam

Bu torpağın oğluyam,
Torpağıma bağlıyam.
Torpaq əlimdən gedib,
Mən sinəsi dağlıyam,
Bilin, qarabağlıyam.

Torpaq mənim həyaım,
Torpaq mənim canımdır.
O, döyünən ürəyim,
Damarımda qanımdır.

Düşmən əlində qalıb,
İgidlər şəhid olub,
Ağəddin də qocalıb,
Çətin, coşam, çağlayam,
Axı qarabağlıyam.

## Həkim

**Doktor Əli Məmmədova**

Nə qədər xəstəyə sən şəfa verdin,
Tapdın xəstələrin əlacın, dərdin.
Onlar şəfa tapar, sən sevinərdin,
Səni görməyəsən dərd, qada, həkim.

Gecəni gündüzə qatdın hər zaman,
Səni qorxutmadı nə qar, nə boran,
Ayrılmadın xəstələrin yanından,
Canını eylədin sən fəda, həkim.

Xəstələr əlinlə şəfa tapan an,
Sən varsan, xoş keçir hər an, hər zaman,
Ağəddin səninlə fəxr edir, inan,
Görmədim adını unuda, həkim.

## A dünya

Həyat niyə belə amansız olur,
Bu gün çiçək açır, sabahsa solur,
Bizə xatirələr yadigar qalır,
Niyə yaranmısan belə, a dünya?

Birini mərd etdin, birini namərd,
Birinə qəm verdin, o birinə dərd,
Neçə ürəklərə vermisən həsrət,
Niyə yaranmısan belə, a dünya?

Ağıddin, könlümdə bircə arzum var,
Yaşatsən, yaratsın daim insanlat.
Çəkilsin çən, duman, tez gəlsin bahar,
Sən də gör bu dünya gözəl dünyadı.

Ədalət 2019.- 25 yanvar.- S.7.